*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* **ELMİ ƏSƏRLƏRİ № 25, 2018**
**УЧЁНЫЕ ЗАПИСКИ***Азербайджанского Государственного Университета Культуры и Искусств* **№ 25, 2018**
**SCIENTIFIC NEWS** ***of Azerbaijan State University of Art and Culture*** **№ 25, 2018**

**UOT 75**

***Sərvinaz Cahangirli***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** gasimzadeh_sarvinaz@mail.ru

# XX ƏSRİN I YARISI AZƏRBAYCAN RƏSSAMLARININ YARADICILIĞINDA BAKI MÖVZUSU

**Xülasə:** Məqalədə XX əsrin birinci yarısında Azərbaycan rəssamlarının yaradıcılığında Bakı mövzusu əksini tapmış əsərlər təhlil olunur. Bu gözəl şəhərin tanıdılmasında müstəsna rol oynayan rəssamların yaradıcılığı geniş işıqlandırılır. XX əsrin birinci yarısı Azərbaycan təsviri sənətində tərəqqi, dirçəliş dövrü hesab edilir.

**Açar sözlər:** mənzərə janrı, Xəzər dənizi, Bakı və Abşeron mənzərələri, müxtəlif memarlıq abidələri, parklar, kəndlər

XX yüzillik Azərbaycan xalqının tarixində iqtisadi və mədəni yüksəliş yüzilliyi kimi qiymətləndirilir. Mədəni tərəqqinin genişlənməsində qabaqcıl mətbuat, sənət ocaqları yaranması və təbii ki, görkəmli ziyalılarımız da mütərəqqi rol oynamışlar. Bu baxımdan 1906-cı ildə yazıçı, dramaturq Cəlil Məmmədquluzadənin təşəbbüsü ilə Tiflis şəhərində nəşr olunan satirik “Molla Nəsrəddin” jurnalının fəaliyyəti xüsusilə qeyd edilməlidir. Bu jurnalın ərsəyə gəlməsində yazıçı-dramaturqlarla yanaşı rəssamların da rolu əvəzedilməzdir. Molla Nəsrəddin jurnalı bir çox rəssamlar üçün əvəzedilməz təcrübə və ilham mənbəyi olmuşdur. Bu rəssamlardan Əzim Əzimzadəni xüsusilə qeyd etmək lazımdır. Realist qrafikanın banisi, satirik rəsmin mahir ustası, milli rəngkarlıq sənətinin öncül nümayəndəsi olan Əzim Əzimzadə öz yaradıcılığında bir çox mövzulara yer vermişdir. Əzim Əzimzadə sözügedən mövzularla yanaşı Bakı-Abşeron mövzusuna da müraciət etmiş və bir neçə mənzərələr ərsəyə gətirmişdir. Bunlardan 1931-ci ildə yaratdığı “Bakı bağlarında ” adlı əsərini qeyd etmək olar. Belə ki, rəssam bu əsərində insanların bağda istirahətini təsvir etmişdir. Böyük bir ağac altında xalça üzərində çay süfrəsinə toplaşmış yeddi kişi obrazı təsvir edilmişdir. Digər obraz isə bir qədər kənarda əks etdirilmişdir. Mütəmadi olaraq Əzim Əzimzadə fırçasına məxsus olan satira, ironiyadan fərqli olaraq biz bu əsərdə məişət səhnəsinin uğurlu həllinin şahidi oluruq. Saf isti münasibət, səmimiyyət və

xoş söhbət məclisi rəssamın fırçasında olduqca məharətlə tamaşaçıya çatdırılır. Bakı bağlarının əsrarəngiz gözəlliyini rəssam bu əsərində tamaşaçıya çatdırmağa müvəffəq olmuşdur.

Bir çox Azərbaycan rəssamlarının yaradıcılığında Bakı şəhərinin müxtəlif memarlıq abidələrinin, sənaye müəssisələrinin, kəndlərinin, park və meydanlarının mənzərələrinə geniş yer ayrılması şəhərin qədimliyinin və müasirləşməsinin nəticəsində olmuşdur. Bu mövzuya Əzim Əzimzadə (1880-1943), Ələkbər Rzaquliyev (1903-1974), Səttar Bəhlulzadə (1909-1974), Kamil Xanlarov (1915-1996), Əyyub Hüseynov (1916-1998), Tağı Tağıyev (1917-1993), Mikayıl Abdullayev (1921-2002), Böyükağa Mirzəzadə (1921-2007), Nəcəfqulu İsmayılov (1923-1990), Mahmud Tağıyev (1923-2001), Elbəy Rzaquliyev (1926-2007) , Rasim Babayev (1927-2007), Tahir Salahov (1928), Kamil Nəcəfzadə (1929-2011), Toğrul Nərimanbəyov (1930-2013) və onlarca başqa rəssamların rəngkarlıq əsərlərində Bakı şəhərinin ecazkar görünüşünün təsvirinə rast gəlirik. Rəssamlarımız respublikamızın paytaxtı olan Bakı şəhərinin təsvirinin bədii obrazlarını ağ kətan üzərinə köçürərək yaratmış olduqları əvəzedilməz tablolarını bir sıra beynəlxalq sərgilərdə nümayiş etdirərək, bu gözəl şəhərin tanıdılmasında müstəsna rol oynuyurlar.

Azərbaycan qrafikasının digər görkəmli nümayəndəsi Ələkbər Rzaquliyevdir. Bir çox janrlara və mövzulara müraciət edən qrafik rəssamın yaradıcılığında “Köhnə Bakı” silsiləsi xüsusi yer tutur. Qeyd edək ki, rəssama şöhrət qazandıran da məhz bu silsiləyə daxil olan linoqravüra əsərləri olmuşdur. Bu silsilə “Köhnə Bakı” adlanmasına baxmayaraq, əslində rəssam sırf Bakı-İçərişəhər həyatını deyil, digər bölgələrdəki bəzi adət-ənənə və həyat şəraitini İçərişəhərdə gördüklərinin timsalında ümumiləşdirmişdir. Xüsusi məharətlə işlənilmiş bu linoqravüra əsərlərinə baxdıqca izləyici nostalji hisslərə qapılır. Eyni zamanda bu əsərlər təsviri sənətin əvəzedilməz bir parçası olmaqla yanaşı həm də, xalqımızın etnoqrafiyasını tədqiq edən tarixçi alimlərimiz üçün də əvəzedilməz bir mənbə ola bilər.

Bir çox təsviri sənət nümayəndələri kimi Ələkbər Rzaquliyev də Bakı şəhərindən ilhamlanaq öz yaradıcılığında bu mövzuya böyük yer ayırmışdır. Rəssama şöhrət qazandıran bu linoqravüra silsiləsində rəssam Bakılı camaatın həyat və məşğuliyyətini olduqca məharətlə tamaşaçıya çatdırmışdır. Bu silsiləyə “İçərişəhər”, “Qız Qalası”, “Suraxanı atəşgahı”, “İçərişəhərdə” adlı əsərlər daxildir.

“Bakı” mövzusu öncə qeyd etdiyimiz kimi, Azərbaycan təsviri sənətinin bir çox nümayəndələrinin yaradıcılığında yer verilən mövzulardandır. Bu rəssamlardan biri də xalq rəssamı, Azərbaycan təsviri sənətinin mənzərə janrının banisi hesab edilən Səttar Bəhlulzadədir. Azərbaycanın tanınmış rəssamı Səttar Bəhlulzadə bir çox rayonlarımıza səfər edərək, ilhamlandığı təbiət gözəlliklərindən ecazkar mənzərələr yaratmışdır. Rəssam nəinki bölgələrdə, eyni zamanda doğulub boya-başa çatdığı Bakı şəhərinin və onun ətraf kəndlərinin mənzərələrini dönə-dönə fırçasıyla kətana köçürmüş, sanki bu gözəllikləri yenidən yaratmış, canlandırmışdır.

Bütün yaradıcılığı boyu tapdanmış cığırlarla getməkdən çox uzaq olan rəssam sənaye – neft mövzusuna bu vaxta qədər nə özünün, nə də dıgər həmkarlarının göstərə bilmədiyi bədii münasibəti sərgiləmək arzusunda idi. Onun 1959-cu ildə tamaşaçılara təqdim etdiyi “Xəzərdə axşam” əsərini bu mənada istəyinin gerçəkləşməsi kimi qəbul etmək olar.

“Xəzərdə axşam” adlı tabloda rəssam mavi, bənövşəyi və sarı rəngin tonlarını vəhdət şəklində işləyərək unikal bir tablonun ərsəyə gəlməsinə müvəffəq olmuşdur. Qeyd etmək lazımdır ki, Xəzər mövzusu Azərbaycan təsviri sənətinin bir çox rəssamlarının müraciət etdiyi mövzulardandır. Lakin Səttar Bəhlulzadə bu mövzunu romantik abu-havada, özünəməxsus tərzdə və ən əsası dəsti-xəttinə uyğun bir tərzdə əks təsvir etməyə müvəffəq olmuşdur. Rəssam ön planda Xəzərin sularına qonan və uçuşan qağayıları əks etdirmiş, arxa plana uzanan panorama genişləndikcə bir qədər dumanlı fəzada neft buruqlarının əksini təsvir etmişdir. Səmanın mükəmməl rəng qamması ilə vurğulanması bir məna olaraq əsəri tamamlamaqdadır.

Rəssamın Neft mövzusuna aid olan əsərləri sadəcə bu tablo ilə məhdudlaşmış mır. Daha sonralar da rəssam bu mövzuya dəfələrlə müraciət etmiş, bir-birindən gözəl əsərlər yaratmışdır. Rəssamın sözügedən mövzuda çəkilmiş bir sıra əsərlərini sadalamaq olar. Bunlardan “Dəniz mədənləri” (1953), “Yeddi gəmi adası” (1954), “Neft daşlarında” (1954), “Neft daşları” (1955), “Estakada” (1955), “Dəniz mədənlərində” (1955), “Neft daşlarının görünüşü” (1955), “Dəniz buruqları” (1955) və s. tabloları xüsusilə yaddaqalandırlar. Xəzərin dərinliklərində insan əli ilə qurulmuş estakadalar və buruqlar bu əsərlərə yeni məna gətirib. Dənizin müxtəlif anlarını özündə cəmləşdirən bu tablolar həm lirikliyi, həm də dramatik gərginliyi ilə seçilirlər.

Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindən biri, XX əsrin birinci yarısında öz yaradıcılığı ilə özünəməxsus mövqe tutan rəssamlardan biri də Əyyub Məmmədovdur. Əyyub Məmmədovun 1950-1960-cı illər mənzərə yaradıcılığı məzmun müxtəlifliyi, motiv və boyakarlıq həllinin zənginliyi ilə fərqlənir. Boyakar tərəfindən yaradılmış mənzərə əsərləri forma və rəng baxımından çox təbii və realdır, lirika bu əsərlər xüsusi məhəbbətlə aşılanmışdır.

Kənd mənzərələrinin müxtəlif motivlərini yaradan sənətkar, eyni zamanda şəhər təbiətinin möhtəşəmliyini özündə əks etdirən bir sıra əsərlər üzərində də çalışmışdır. Rəssamın bu sahədə yaratdığı ən mühüm və orijinal əsərləri sırasında “Bakı səhər çağı” (1956) və “Axşama doğru Bakıda qar” (1959) əsərlərinin adını çəkmək olar.

Doğma şəhərə həsr olunmuş mənzərələrində Əyyub Məmmədov ilk növbədə paytaxtın memarlıq görkəminin gözəlliyini və möhtəşəmliyini əks etdirir. Deyilənlərə parlaq misal kimi “Bakı. May səhəri” (1980), “Bakı, sahil kənarı” (1983) və “Beşillik şəhəri” (1986) əsərlərini göstərmək olar. Bu əsərlər öz reallığı və yüksək icra peşəkarlığı ilə xüsusilə fərqlənirlər.

XX əsrin tanınmış və Azərbaycan rəssamlığında müstəsna rol oynayan rəssamlardan biri də Elbəy Rzaquliyevdir. Hansı ki, bu rəssamın yaradıcılığında da

Bakı mövzusu xüsusi əhəmiyyət kəsb edir. Təkcə bunu qeyd etmək kifayətdir ki, Elbəy Rzaquliyevin yaradıcılıq amalı əvvəlcədən doğma diyarı Abşerona bağlıdır. Bu mövzu onun əsərlərinin ana xəttini təşkil edir. İstər tarixi kompozisiyalarda və istərsə də, müasir həyatımızın rəngarəngliyini canlandıran tablo və mənzərələrində Şirvanşahlar saray kompleksinin möhtəşəm imarətləri, Abşeron kəndlərinin panoramı üzərində yüksələn qədim memarlıq abidələri, qəsrləri, günbəzləri, qüllələr, qızılı qumlara rövnəq verən meyvə ağacları, göz oxşayan yaşıllıqlar Xəzərin gah sakit, gah tufanlı, dalğalı, gur suları, mavilikləri onun üçün doğmadır, əzizdir, tükənməz ilham, aramsız müşahidələr mənbəyidir.

Sadalanan məziyyətləri və özəllikləri özündə ən bariz şəkildə əks etdirən tablolarında biri "Şirvanşahlar sarayı" adlanır. Bu İçərişəhərin qədim memarlıq komplekslərindən birinin ecazkar görüntüsünün təsviridir. “Şirvanşahlar sarayı” əsərində XV əsrə aid olan qədim tarixi abidə təsvir olunub. Elbəy Rzaquliyevin yaradıcılığı ilə tanış olanlar bu sarayın onun bir çox əsərlərində yer aldığının şahidi olmuşlar. Amma tablonun bütövlüklə bu saraya həsr olunması rəssamın nadir işlərindəndir. Ön planda tək ağacın təsviri böyük məna kəsb edir. Budaqları qurumuş ağac həm sarayın qədimliyini göstərir, həm də abidəyə baxış bucağı yaradır. Maraqlıdır ki, abidənin arxa plandan təsvir olunan tikililəri azacıq dağınıq halda təsvir edilib. Bu sarayın həmin hissəsinin daha qədim olduğunu göstərir. Nəzərə alsaq ki, Şirvanşahlar saray kompleksin bütün binaları eyni əsrdə inşa olunmayıb, belə olan halda rəssamın təsvirinin reallığı özünü sübut edir. Bütün bu özəlliklər Elbəy Rzaquliyev yaradıcılığınınm özünəməxsus palitrası, rəng duyumu, və s. məziyyətlərinin ən bariz nümunəsidir [1].

Azərbaycan təsviri sənətinin inkişafında müstəsna rol oynayan, rəssamlıqda əməli xidmətləri olan rəssamlardan biri də Tağı Tağıyevdir. Təbii ki, Bakı mövzusu Tağı Tağıyevin də diqqətində olmuşdur. Belə ki, rəssam 1947-ci ildə “Bakının dənizdən mənzərəsi” adlı əsərini yaratmışdır.Bu əsərin rəng quruluşu nəfis və mürəkkəbdir. Rəssam boz-mirvari və açıq bənövşəyi rəng qammasında qısa , ekspressiv və pastoz yaxılarla su və hava axınını formalaşdırır.

Qeyd etmək lazımdır ki, rəssam tərəfindən Bakı buxtasının gözəlliklərini əks etdirən xeyli kompozisiya variantları çəkilmişdir. Onun Bakıya həsr edilən məşhur işləri arasında “Bakı emalatxanamın pəncərəsindən” (1958), “Bakı. Tutqun gün” (1959) əsərlərində rəssam özünü təkcə rəng ustası kimi deyil, həmçinin incə lirik kimi göstərir.

Tağı Tağıyev sənaye mövzusuna da öz yaradıcılığında yer vermişdir. Öz mürəkkəbliyi və zənginliyi ilə seçilən bədii obrazlar, ətraf aləmin dərindən ifadə edilməsi, insanların yaradıcı əməyi əks olunan sənayə mənzərələri, təbiəti ram edən fəhlə və neftçi obrazları məhz Tağı Tağıyevə məxsusdur. Rəssam dəfələrlə neft daşlarına səfər etmişdir. Bu silsilədən olan əsərlər arasında “Dənizdə şəhər”, “Rezervuarlar”, “Dəmir dirəklər üzərində şəhər”, “Ay işığında”, “Estakada” və başqa əsərləri nümunə göstərmək olar. Rəssam tərəfindən təsvir edilən fəhlə və neftçi obrazları olduqca maraqlıdır. Belə əsərlərində rəssam tanış prototiplərdən uzaqlaşaraq, ümumiləşdirilmiş, mənəvi və fiziki cəhətdən güclü, öz məqsədinə

doğru addımlayan əməkçi obrazlarını yaratmışdır. Bu məqsədə nail olmaq üçün rəssam iriformatlı kompozisiyalara , yığcam ümumiləşdirilmiş formalara, güclü vurğulara malik rəng qammalarına müraciət edir [2].

XX əsrin birinci yarısı Azərbaycan təsviri sənətində tərəqqi, dirçəliş dövrü hesab edilir. Bu dövrdə öz təşəkkülünü tapan, inkişaf edən Azərbaycan rəssamlığını baxmayaraq ki, müəyyən mövzu və üslub qayda-qanunları ilə sıxışdırılırdılar, lakin bütün bunlara baxmayaraq öz yaradıcılıqlarında milli mənəvi dəyərləri, milli elementləri itirməməyə səy göstərirdilər. Bu milli meyarları çətinliklə olsa belə yaşadaraq gələcək nəsilə ötürülməsinə daima çalışmış və buna da layiqincə müvəffəq olmuşlar.

Öncə qeyd etdiyimiz kimi mövzu seçimində də müəyyən çərçivələrin, olmasına baxmayaraq XX əsrin əvvəllərində fəaliyyət göstərən rəssamlar tələb olunan mövzularla yanaşı öz sevdikləri mövzulara da nmüraciət edirdilər. Bu mövzulardan biri və ən başlıcası məhz "Bakı" mövzusu idi ki, belə əsərlərə sözügedən dövrdə fəaliyyət göstərmiş olan rəssamların yaradıcılığında tez-tez rast gəlinirdi.

## Ədəbiyyat:

1. Rzaquliyev Elbey. Kataloq. Bakı: 2006.
2. Tağı Tağıyev həyat və yaradıcılığı. Sərvət. Bakı: 2013 Şərq və Qərb,104 səh.
3. Kərimov K, Əfəndiyev R., Rzayev N., Həbibov N. Azərbaycan incəsənəti.Bakı: İşıq, 1992, 344 s.

**Сарвиназ Джахангирли**

## Тема Баку в творчестве Азербайджанских художников в первой половине XX века

### Резюме

В данной статье исследуется творчество азербайджанских художников первой половине XX века, в произведениях которых была отражена тема Баку.Автор анализирует работы художников, которые играют исключительную роль в знакомстве с этим прекрасным городом.

**Ключевые слова:** жанр пейзаж, Каспий, Баку и Абшеронские пейзажи, различные архитектурные памятники, парки, деревни

**Servinaz Jahangirli**

## The topic of Baku in the works of Azerbaijani artists of the first half of the XX century

### Summary

In this article was given the description of the drawings of the first half of the 20th century on the theme of Baku. With the acquaintance of the beautiful city the incomparable role was played by the works of masters.

**Keywords:** landscape genre, Caspian, Baku and Absheron landscapes, various architectural monuments, parks, villages

**Məqalənin redaksiyaya daxil olma tarixi: 24.04.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 03.05. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 30.05. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənzadə**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**